# DAŞINAN SEÇKİ QUTUSUNU GÖTÜRƏN KOMİSSİYA ÜZVÜ/XÜSUSİ QRUPUN ÜZVLƏRİ ÜÇÜN XATİRƏ TƏLİMATI

**Səsvermə elektron vasitələrdən istifadə edərək keçirilən seçki məntəqələri üçün nəzərdə tutulub**

**Gürcüstan parlamentinə 26 oktyabr 2024-cü ilin seçkiləri**

**Bu resurs İHHŞ Seçki Sistemlərinin İnkişafı, İslahatlar və Tədris Mərkəzi tərəfindən hazırlanıb.**

**Xatirə təlimatı komissiya üzvü/xüsusi qrupun üzvü tərəfindən funksiyaya uyğun olaraq seçiciyə kvalifikasiyalı xidmət göstərməsi üçün köməkçi resursdur.**

Daşınan seçki qutusu ilə səsvermə proseduru səsvermə günü saat 09:00-da başlayır və saat 19:00-da başa çatır. Daşınan seçki qutusu vasitəsilə səsvermə proseduru başa çatdıqdan sonra bülletenlərin seçki qutusuna salınması üçün yarığ dərhal möhürlənir. Daşınan seçki qutusu saat 20:00-dan gec olmayaraq seçki məntəqəsinə qaytarılmalıdır.

Komissiyanın sədri funksiyanı yerinə yetirmək üçün sizə təhvil verir:

- möhürlənmiş daşınan seçki qutusunu;
- daşınan seçki qutusu siyahısının komissiya üçün nəzərdə tutulmuş versiyasını;
- lazımı sayda seçki bülletenləri;
- seçki bülleteninin doldurulması üçün xüsusi markerlər;
- lazımı sayda xüsusi çərçivə zərfləri;
- metal bərkidici (seçici tərəfindən seçki bülleteni xüsusi çərçivə zərfinə yerləşdirdikdən sonra çərçivə zərfi metal bərkidici ilə bərkidilir və daşınan seçki qutusuna yerləşdirilir);
- işarələnməni yoxlamaq üçün ultrabənövşəyi lampa;
- işarələnmə mayesi;
- yazı qələmi (daşınan seçki qutusu siyahısında seçici imzasının qeydə alınması məqsədilə);
- metal bağlayıcı (seçicinin seçki bülleteni korlandıqda istifadə olunur);
- daşınan seçki qutusunun yarığının möhürü.

Seçki məntəqəsində olmaq hüququ olan şəxslər istədikləri təqdirdə daşınan seçki qutusu vasitəsilə səsvermə prosedurunun gedişini müşahidə etmək hüququna malikdirlər.

- Seçicinin yanına getdiyiniz zaman ondan şəxsiyyətini təsdiq edən sənədi sizə təqdim etməsini xahiş edin. Seçici şəxsiyyətini təsdiq edən sənədlərdən birini təqdim etdikdə səsvermədə iştirak edir:
  - ✔ Gürcüstan vətəndaşının elektron şəxsiyyət vəsiqəsini;
  - ✔ Gürcüstan vətəndaşının qeyri-elektron şəxsiyyət vəsiqəsini (elektron məlumat daşıyıcısı olmayan);
  - ✔ Gürcüstan vətəndaşının pasportunu.



- Seçicinin təqdim etdiyi şəxsiyyəti təsdiq edən sənədin etibarlılıq müddətini yoxlayın. Gürcüstan vətəndaşının qeyri-elektron şəxsiyyət vəsiqəsi təqdim edildikdə, sənədin verilmə tarixini yoxlayın.
- İşarələnməni yoxlayan alətdən (ultrabənövşəyi lampa) istifadə edərək seçicinin əlində işarələnmənin olub-olmadığını yoxlayın.

**Yadda saxlayın!**
Yuxarı əzələləri ("fiziki vəziyyəti") olmayan seçici işarələnmə yoxlanılması prosedurundan keçmir.

**Yoxlamanın nəticələrini nəzərə alaraq:**

- ✔ İşarələnmənin yoxlanılması üçün xüsusi alət seçicidə artıq işarənin olduğunu aşkar edərsə, ona səsvermədə iştirak etmək qadağan edilir. Seçiciyə səsvermədə iştirakdan imtina olunmasının səbəbini izah edin. Faktla bağlı izahat (daşınan seçki qutusunun siyahısında seçicinin sıra nömrəsini, adı və soyadını göstərməklə) yazın. Sənədi müşayiət edən şəxslərlə (mövcud olduqda) birlikdə imzalayın.
- ✔ Seçici etibarlılıq müddəti bitmiş şəxsiyyət vəsiqəsini və ya Gürcüstan vətəndaşının etibarsız hesab edilən qeyri-elektron şəxsiyyət vəsiqəsini təqdim etdikdə (27 iyul 2011-ci il tarixinədək verilmiş qeyri-elektron vəsiqə etibarsızdır), ona səsvermədə iştirak etmək qadağan edilir. Seçiciyə səsvermədə iştirakdan imtinanın səbəbini izah edin və ona şəxsiyyətini təsdiq edən etibarlı sənəd təqdim etdikdə səsvermədə iştirakına icazə veriləcəyini bildirin.
- ✔ Seçici müəyyən edilmiş tələblərə cavab verdikdə, seçicinin qeydə alınması və seçki bülleteni verilməsi proseduruna keçin.

**Seçicinin qeydə alınması və sonradan seçki bülleteninin verilmə proseduru:**



- Seçicinin təqdim etdiyi sənədə daxil olan seçicinin qeydiyyat məlumatları ilə daşınan seçki qutusu siyahısındakı məlumatların uyğunluğunu yoxlayın.
- Daşınan seçki qutusunun siyahısındakı məlumatların uyğunluğu təsdiq edildikdə, seçicinin sağ əlinin baş barmağının və

ya şəhadət barmağının dırnağına işarələnmə edin (əgər qeyd olunan hərəkəti yerinə yetirmək qeyri-mümkündürsə - sağ əlin digər barmaqlarında və bu da mümkün deyilsə, sol əldə eyni qaydada edilir).

**Yadda saxlayın!**
Yuxarı əzələləri ("fiziki vəziyyəti") olmayan seçici işarələnmə yoxlanılması prosedurundan keçmir. Həmçinin penitensiar müəssisələrdə, xəstəxanalarda və digər stasionar müalicə müəssisələrində (xəstələrə qarşı) işarələnmə istifadə edilmir.

- İşarələnmə prosedurunu həyata keçirdikdən sonra daşınan seçki qutusunun siyahısının müvafiq qrafasında imza edin və seçiciyə seçki bülleteni aldığını imzası ilə təsdiq etməsini bildirin.

**Yadda saxlayın!**
Səsvermə prosesində seçicinin daşınan seçki qutusunun siyahısında başqa seçicinin soyadının yanındakı qrafada imza atması aşkar edildikdə, bu halda soyadı boyunca imzası olan seçici həmin qrafada imza atmalıdır. Faktla bağlı izahat (daşınan seçki qutusunun siyahısında seçicinin sıra nömrəsini, adı və soyadını göstərməklə) yazın. Sənədi müşayiət edən şəxslərlə (mövcud olduqda) birlikdə imzalayın.

- Seçicinin qeydiyyat proseduru başa çatdıqdan sonra seçiciyə seçki bülleteninin doldurulması və xüsusi çərçivə zərfdən istifadə edilməsi qaydasını izah edin.

*"Səs vermək üçün seçki bülletenində istədiyiniz yalnız bir subyektin qarşısındakı dairəni rəngləyin. Seçki bülleteni qatlamayın və seçimin gizliliyi üçün doldurulmuş bülleteni xüsusi çərçivə zərfinə qoyun".*

- Seçki bülleteni doldurduqdan və xüsusi çərçivə zərfindən istifadə qaydalarını izah etdikdən sonar seçki bülletenini seçki subyektlərinin siyahısını tam əhatə etməsi üçün xüsusi çərçivə zərfinə yerləşdirin. Seçiciyə xüsusi çərçivə zərfinə yerləşdirilmiş seçki bülleteninin yuxarı tərəfindəki sınaq dairəsini rəngləməyi tapşırın.




*Xüsusi çərçivə zərfinə yerləşdirilmişr seçki bülleteninin yuxarı tərəfində olan sınaq dairəsi*

- Xüsusi çərçivə zərfinə yerləşdirilmiş seçki bülletenini seçiciyə verin və ona gizlilik prinsipinə riayət etməklə bülleteni doldurmağı tapşırın.

**Yadda saxlayın!**

Seçici seçki bülleteni müstəqil şəkildə doldura bilmirsə, seçki komissiyasının üzvü, namizəd, seçki subyektinin nümayəndəsi, mətbuat və digər kütləvi informasiya vasitələrinin nümayəndəsi və müşahidəçisi istisna olmaqla, istənilən şəxsi ona kömək etmək üçün dəvət etmək hüququna malikdir.

Seçicinin seçki bülleteni və ya xüsusi çərçivə zərfi korlandıqda, seçicinin korlanmış seçki bülleteni/xüsusi çərçivə zərfini yenisi ilə əvəz edin. Seçicinin iştirakı ilə korlanmış seçki bülletenini seçki subyektlərini görmək mümkün olmayacaq şəkildə qatlayın, qatlanmış seçki bülleteni metal bərkidici ilə bərkidin, küncünü kəsin, “korlanmış” yazın və imzalayın. Daşınan seçki qutusu seçki məntəqəsinə qaytarıldıqdan sonra korlanmış seçki bülletenini ayrıca saxlamaq üçün məntəqə seçki komissiyasının sədrinə təhvil verilin.

- Seçki bülleteninin xüsusi çərçivə zərfindən ayrılması riskinin qarşısını almaq üçün seçicinin doldurulmuş seçki bülletenini xüsusi çərçivə zərfinə qoyduqdan sonra (bu üsulla xüsusi çərçivə zərfi daşınan seçki qutusuna qoyulur) xüsusi çərçivə zərfinə metal bağlayıcıların bərkidilməsini təmin edin.
- Daşınan seçki qutusunun yarığını açın və seçiciyə səs vermə üçün nəzərdə tutulmuş xüsusi çərçivə zərfinə qoyulmuş seçki bülletenini ona daxil etməyi tapşırın.



**Yadda saxlayın!**
Daşınan seçki qutusunun möhürünün bütövlüyü pozulduqda, daşınan qutusunu götürən komissiya üzvləri/xüsusi qrupun üzvləri dərhal komissiyanın sədrinə məlumat verməli, səbəbi göstərilməklə izahat tərtib etməli və ona müşayiət edən şəxslərlə imza atmalısız.

- Daşınan seçki qutusu vasitəsilə səsvermə proseduru başa çatdıqdan dərhal sonra daşınan seçki qutusunun yarığını elə möhürləyin ki, möhürü zədələmədən açmaq mümkün olmasın.
- Səsvermə binasına qayıtdıqdan sonra məntəqə seçki komissiyasının katibinə təhvil verin:
  - ✔ istifadə edilməmiş seçki bülletenlərini (əgər varsa);
  - ✔ korlanmış seçki bülletenlərini (əgər varsa);
  - ✔ istifadə olunmamış xüsusi çərçivə zərfləri (əgər varsa);
  - ✔ daşınan seçki qutularının siyahısını.

Komissiyanın katibi daşınan qutusunun siyahısında imzaların, istifadə olunmamış və/və ya korlanmış seçki bülletenlərinin sayının düzgünlüyünü yoxlayır. Qeyri-dəqiqlik aşkar edildikdə, səbəbi göstərilməklə izahat yazmalısız. Səsvermədə/seçkilərdə iştirak edən seçicilərin sayının müəyyən edilməsi və səsvermənin nəticələrinin yekun protokolunun tərtib edilməsi məqsədilə izahatda göstərilən məlumatlar nəzərə alınır.